# Əziz Kərim - 90



Hörmətli Əziz müəllim!

Sizi 90 illik yubileyiniz münasibətilə təbrik edirik.

Bədii yaradıcılıqla ötən əsrin 50-ci illərində məşğul olmağa başlamısınız. İlk qələm təcrübələriniz rayon qəzetində işıq üzü görüb. Sonralar respublika mətbuatında çıxış etməyə başlamızsınız. 1976-cı ildə "Gilas" adlı ilk şeirlər kitabınız "Gənclik" nəşriyyatında çapdan çıxıb. "Elə bizdə günəşik" 1984-cü ildə oxuculara təqdim olunub. "Çəkməli ayı", "Çörək olsun hər evdə", "İncə gözəl", "Dağ havası", "Qorxulu payız", "Qanlı hədiyyə" və s. kitabların müəllifisiniz.

Şəhhətinizlə bağlı Tibb Universitetində təhsilinizi yarımçıq qoyub, yeyinti sənayesi sahəsində təhsilinizi davam etdirmisiniz. Uzun illər ixtisasınız üzrə müxtəlif vəzifələrdə işləmisiniz.

Hörmətli Əziz müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun, sağlam ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzəti.- 2023- cü il.- 18 fevral.- S. 28.